Milli jurnalistikamızın ali təhsil və elmi araşdırma mərkəzi

5 ildən bir milli mətbuatımızın yubileylərinin geniş keçirilməsi yeni müstəqillik illərində ölkəmizdə yaranmış ən dəyərli və davamlı siyasi mədəni-təcrübəni. Anadilli mətbuatımızın ərsəyə gəlməsinin 145 illiyi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı nəvbəti sərəncam ölkəmizdə bu əlamətdar hadisənin dövlət səviyyəsində qeyd edilməsinə start verib.

Sərəncamda ifadə olunmuş müddəalardan qaynaqlanan yubiley tədbirlərində, qəzet-jurnallarda çap olunan yazılarda, teleradio və onlayn media yayımlarında milli mətbuatımızın keçib gəldiyi əsryarımlıq yola öyünclə nəzər salınır, onun tarixi təcrübəsi və yaşarlılıq qazanmış ənənələri, görkəmli şəxsiyyətləri yada salınır, çağdaş jurnalistikamızın inkişaf yolları barədə önəmli mülahizələr səslənir.

Mətbuat tariximizdən məlumdur ki, "Əkinçi"dən başlayaraq bütün nəşrlərimizdə məmləkətimizdə milli oyanışa təkan verilməsi, xalq təhsili və elmin inkişaf etdirilməsi yolu ilə mədəni yüksəlişə, hərtərəfli tərəqqiyə nail olunması başlıca hədəf kimi qarşıya qoyulmuşdur. Milli ziyalılarımızın mətbuat tribunasından səslənən çağırışları və əməli fəaliyyətləri ilə bu tarixi vəzifə zaman-zaman yüksək səviyyədə gerçəkləşdirilmişdir. "Əkinçi"nin nəşrə başladığı vaxt oxuyub-yazmağı bacaran adamları barmaqla sayılacaq qədər olan, bir nəfər də jurnalisti və poliqrafçısı olmayan Azərbaycan bu yubiley günlərində dünyanın ən müasir jurnalistika şəbəkəsi yaratmış ölkələri cərgəsindədir.

Bu uğurun qazanılmasında milli jurnalistikamız üçün alitəhsilli, peşəkar kadrlar hazırlayan Bakı Dövlət Universitetinin və onun jurnalistika fakültəsinin də danılmaz xidmətləri olmuşdur.

Ötən il xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin tarixi yadigarlarından olan, ilk milli ali məktəbimiz sayılan Bakı Dövlət Universitetinin 100 illik yubileyini böyük təntənə ilə qeyd etdi. Bu əlamətdar hadisə media dairələrində ölkəmizin ali jurnalistika təhsili, mətbuat tarixi və nəzəriyyəsi sahəsində tədqiqat mərkəzi kimi tanınan BDU-nun jurnalistika fakültəsinin yaradılmasının 50 illiyinin də qeyd edilməsi ilə müşayiət olundu.

Bakı Dövlət Universitetinin mövcudluğunun ilk onilliyində əsası qoyulmuş jurnalistika təhsilinin bu ali məktəbin fəaliyyətinin 50-ci ilində ayrıca ixtisas strukturuna çevrilməsi milli mətbuatımızın və təhsilimizin tarixi inkişafı ilə əldə edilmiş önəmli bir nailiyyətdir. 1969-cu ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən ayyarım sonra onun xeyir-duası ilə fəaliyyətə başlamış jurnalistika fakültəsi peşəkar kadr hazırlığının əsas ağırlığını öz üzərinə götürməklə, çoxsaylı məzunlarının fəal iştirakı ilə milli jurnalistikamızın sonrakı inkişafına sanballı kömək göstərmişdir. Fəaliyyətinin ikinci yarımərsinə qədəm qoymuş, ölkəmizdə ən təcrübəli və nüfuzlu ali jurnalistika təhsili ocağı sayılan BDU-nun jurnalistika fakültəsinin qazandığı uğurlara, qarşıda duran vəzifələrə milli mətbuatımızın 145 illik yubileyi günlərində bir daha nəzər salaq.

Əvvəla, onu deyək ki, bir əsrdən çox tarixi olan Bakı Dövlət Universitetinin peşəkar kadr hazırlığı sistemində jurnalistika təhsilinin öz tarixi yeri və mövqeyi var. Keçmiş SSRİ-nin universitetləri arasında ali jurnalistika təhsilinin əsası sovet dövründə Azərbaycan Dövlət Universiteti adlanan indiki BDU-nun pedaqoji fakültəsində jurnalizm və bibliologiya kafedrasının yaradılması ilə, ilk olaraq, 1928-ci ildə qoyulmuşdur. Müəyyən fasilədən sonra 1945-ci ildən ADU filologiya fakültəsinin nəzdində yaradılan jurnalistika şöbəsi 25 il bir kafedra - jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrası ilə təmsil olunmuşdur.

Kafedraya ilk illərdə kəşfiyyat qəzet işçisi, tanınmış dövlət və ictimai xadim Həsən Şahgəldiyev rəhbərlik etmişdir. Onunla birlikdə milli jurnalist kadrlarının hazırlığı işinə o dövrün görkəmli mətbuat işçiləri - Nəsir İmanquliyev, İsrafil Nəzərov, Qılman İlkin, Rza Quliyev, Cümşüd Əzimov da qoşulmuşlar. Akademik Məmməd Arif Dadaşzadə, professorlar Mir Cəlal, Əli Sultanlı, Feyzulla Qasımzadə, Muxtar Hüseynzadə, Məmmədhüseyn Təhmasib, Hidayət Əfəndiyev, Məmməd Qazıyev də gələcək jurnalistlərin ilk müəllimləri sırasında olmuşlar. Şöbənin birinci buraxılış məzunları 1950-ci ildə Azərbaycanda ilk dəfə ali jurnalistika ixtisası diplomları almışlar. Düz 50 il əvvəl isə - 1969-cu ildə jurnalistika şöbəsi ayrıca fakültəyə çevrilmişdir. Onun ilk dekanı professor Nuroddin Babayev olmuşdur.

Jurnalistika dinamik peşədir və şübhəsiz ki, daim yenilənir və bu ixtisasın ardınca gedənlərin qarşısında ciddi tələblər qoyulur. Bu səbəbdən, artıq yalnız auditoriya saatları ilə kifayətlənmək olmur, eyni zamanda, sabahın jurnalistləri üçün müxtəlif treninqlər və kurslar, təlimlər keçirilməlidir. Məqsəd nəzəri biliklərlə yanaşı, tələbələrimizə həm də praktik vərdişlər aşılamaqdır. Birmənalı olaraq vurğulamaq yerinə düşər ki, fakültəmizdə bunun üçün hər cür şərait mövcuddur. Nəzəriyyə ilə praktikanın vəhdətini özündə təcəssüm etdirən jurnalistika ixtisası üzrə müasir dövrün tələblərinə cavab verən kadrların hazırlanması, bu baxımdan yeni yanaşma və metodologiyaların tətbiqini zəruri edir.

Bu gün mediadan gözləntilər çoxdur. Bu gözləntilərə cavab verəcək peşəkar jurnalistlərin hazırlanması isə ciddi əhəmiyyət daşıyır.

Hazırda təhsilin üç dildə aparıldığı (Azərbaycan, rus və ingilis) fakültəmizdə bakalavr pilləsinə bir - jurnalistika; magistratura pilləsinə isə 7 ixtisas - teleradio jurnalistikası, beynəlxalq jurnalistika, jurnalistikanın nəzəriyyəsi və təcrübəsi, publisistik jurnalistika, mətbuat tarixi, radioteleviziya yayım menecmenti, media və kommunikasiya sistemləri üzrə qəbul keçirilir. Fakültədə tədris, elmi-metodik mərkəz kimi 4 kafedra - yeni media və kommunikasiya nəzəriyyəsi, milli mətbuat tarixi, multimedia və elektron kommunikasiya, beynəlxalq jurnalistika və informasiya siyasəti kafedraları; 1 tədris-teleradio studiyası; 1 elmi-tədqiqat laboratoriyası; "Barama" media mərkəzi, "Füyuzat" media mərkəzi və "online" media otağı fəaliyyət göstərir.

Vurğulamaq istərdik ki, kafedraların adları məhz son bir ildə BDU-da aparılan köklü islahatların nəticəsində dəyişdirildi, profil istiqamətlərinə görə tədris planında dəyişikliklər aparılmaqdadır və nəvbəti tədris ilində bu dəyişiklik artıq keyfiyyət nöqteyi-nəzərindən özünü göstərəcəkdir. Kafedraların profil istiqamətlərinə uyğun olaraq yeni, həm nəzəri, xüsusilə də praktik əhəmiyyəti olan fənlərin tədrisi nəzərdə tutulur. Ümumiyyətlə, universitetdə aparılan struktur dəyişikliklərі həm tədrisdə, həm də idarəçilikdə keyfiyyət dəyişikliyinə də ciddi təkan verir.

Universitetdə aparılan struktur islahatlarının nəticəsində "Bakı Universiteti" qəzeti də Jurnalistika fakültəsinin tərkibinə daxil edildi. Tarixi və ənənəsi olan bu qəzetin yeni tərtibatda və yeni ruhda yayımlanan ilk nömrəsi isə, Universitetimizin məhz 100 illik yubiley nömrəsinə təsadüf etdi. Artıq ardıcıl olaraq, ayda bir dəfə qəzet, fakültəmizin birbaşa iştirakı və nəzarəti altında işıq üzü görməkdədir.

Nəzəri biliklərlə yanaşı, birbaşa praktik yöndən də tələbələrimizin müasir tələblərə cavab verən peşəkar kadr olaraq hazırlanmasını təmin etmək məqsədi ilə son bir neçə ildə, əsasən bir neçə istiqamətdə iş sonu bir neçə ildə, əsasən bir neçə istiqamətdə iş sonu bir neçə ildə, əsasən bir neçə istiqamətdə iş sonu aparılır:

Praktik işlər. Fakültəmizdə 1984-cü ildən tədris-teleradio studiyası fəaliyyət göstərir. 2016-cı ildə TİKA-nın maliyyə dəstəyi ilə təmir edilən və ən müasir texniki avadanlıqlarla təchiz edilən yenilənmiş tədris studiyasında fakültə tələbələri tərəfindən müxtəlif teleradio verilişləri hazırlanır. Həftədə bir dəfə 3 dildə - Azərbaycan, rus və ingilis dillərində "BDU TV XƏBƏRLƏR" informasiya bloku təqdim edilir.

Eyni zamanda, "Gələcəyin sədasi", "Riyazi reallıq" kimi maarifləndirici, "Maraq nöqtəsi", "Tələbə bileti" adlı analitik televerilişlər, "BDU RADİO" studiyasında isə "Bu gün" və "Expromt" adlı maarifləndirici və musiqili radioverilişlər hazırlanır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş 32 dəqiqəlik "100 ilin təntənəsində" sənədli filmi hazırlanaraq yayıma təqdim edilmişdir. Tələbələr tərəfindən "Bir ömürdə iki tale", "Qazi", "Uğurun başlanğıcı", "Heykəltaraş" adlı sənədli filmlər hazırlanıb. Verilişlərimiz "BDU TV" "youtube" kanalı və sosial şəbəkələr vasitəsi ilə yayımlanır. Hətta tələbələrimizin studiyamızda hazırladıqları süjet və verilişlərin bəzilərinin ümummilli yayımda olan TV kanalları vasitəsi ilə efirdə göstərilməsini də xüsusi vurğulamaq istərdik. Fakültəmizin nəzdində müstəqil tələbə internet televiziyası və radiosunun yaradılmasını da qarşımıza məqsəd qoymuşuq.

Bildirmək istərdik ki, yaxın gələcəkdə fakültəmizdə "Fotojurnalistika" studiyasının yaradılması ilə də bağlı müəyyən görüşlər keçirilməkdə və təkliflər hazırlanmaqdadır.

Fakültə tələbələrinin birbaşa iştirakı ilə "Jurnalist" tədris qəzetinin hazırlanması işi də uğurla davam etdirilir. Qəzetdə gedən materiallar, eyni zamanda, "525-ci qəzet" və "Şərq" qəzetlərinin xüsusi əlavə olaraq ölkə ərazisinə yayılır.

2017-ci ildə BDU-nun "Azercell Telekom" MMC ilə əməkdaşlığı çərçivəsində jurnalistika fakültəsində "Barama" media mərkəzinin açılışı da əhəmiyyətli hadisə oldu. "Azercell" və "PAŞA" Bankın dəstəyi ilə yaradılan bu mərkəzdə media mövzusunda təlim və seminarlar, görüşlər təşkil etmək, Universitetin digər fakültələrində təhsil alan tələbələrin zəruri bilik və bacarıqlara yiyələnmələri üçün onları müxtəlif layihələrə və proqramlara cəlb etməkdir.

2019-cu ilin may ayının 22-də jurnalistika fakültəsinin nəzdində "Füyuzat" mərkəzinin açılışı oldu. Mərkəzin xətti ilə artıq ödənişsiz əsaslarla "Media dizayn" kursları keçirilməkdədir və daha bir neçə kursun təşkili nəzərdə tutulur.

Treninqlər. 2017-ci ildən başlayaraq tələbələr üçün praktik treninq və seminarların təşkil edilməsinə xüsusi diqqət ayrılıb. Treninq və seminarlar dərs saatlarından kənar vaxtda təşkil edildiyindən tədrisə mane olmadığı kimi, əksinə, nəzəri biliklərin praktik yöndən daha da möhkəmlənməsinə, eləcə də tələbələrin ixtisasa daha çox bağlanmalarına səbəb olmaqdadır. Bu mənada tələbələr üçün keçirilən üç treninqi xüsusi ilə vurğulamaq istərdik. "Jurnalistlər klubu"nun yaradılmasında başlıca məqsəd gənc jurnalistlərin bilik və bacarıqlarının artırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirmək, onları peşəkar kadr olaraq hazırlanması işinə dəstək olmaqdır. "Beynəlxalq jurnalistika məktəbi"nin yaradılmasında başlıca məqsəd yerli və xarici mütəxəssislərin iştirakı ilə beynəlxalq jurnalistikanın, xarici media sistemlərinin, beynəlxalq təşkilatların media siyasətinin, diplomatiya və jurnalistikanın qarşılıqlı əlaqələrinin, qlobal informasiya məkanında informasiya təhlükəsizliyinin, informasiya müharibəsinin və digər mövzular üzrə təlimlərin keçirilməsi olub. "Tələbədən tələbəyə" treninqində isə həm dinləyicilər, həm təlimçilər tələbələrimizdir. Təlimin özəlliyi ondan ibarətdir ki, daha çox təcrübəsi olan yuxarı kurs tələbələri öz bilik və vərdişlərini aşağı kurslarda təhsil alan yoldaşları ilə bölüşürlər.

AMEA-nın Mərkəzi Elmi Kitabxanası ilə Jurnalistika fakültəsi arasında bağlanmış əməkdaşlıq sazişinə əsasən, 2019-cu ilin noyabr ayından "WikiGroup"ların fəaliyyətinə də start verilib. Məqsəd Azərbaycan və başqa dillərdə Vikipediyada məqalələrin yaradılmasında və redaktə olunmasında Jurnalistika fakültəsinin tələbələrinin iştirakını təmin etməkdir. Yaradılan Vikipediya Metodik Mərkəzinin könüllüləri boşluqların aradan qaldırılmasına səmərəli töhfə verəcəklər.

Eyni zamanda, BDU-nun Jurnalistika fakültəsinin 11 tələbəsindən ibarət "Solution" komandasının ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət bürosunun təşkil etdiyi "Peer 2 Peer" "Facebook challenge" layihəsi çərçivəsində ekstremizmlə mübarizə proqramında fəaliyyətini də nəzərə çatdırmaq istərdik. Dörd aylıq fəaliyyətləri dövründə "Solution" komandası gender problemi, yaş ayrı-seçkiliyi və fiziki qüsurlu insanlara dəstək məsələləri üzrə işlər apamışlar, həmçinin, Quba rayonunda "Yaş ayrıseçkiliyi" və "Gender bərabərliyi" mövzularında təlimlər təşkil etmişlər.

Jurnalistika fakültəsi eyni zamanda, son bir ildə müxtəlif dövlət strukturları və nazirliklərlə də müştərək treninq və təlimlərin təşkilinə ciddi önəm verir. Bununla əlaqədar olaraq 2019-cu ilin fevral ayında Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə "Aqrar jurnalistika", may ayında isə Vergilər Nazirliyi ilə birgə təşkil edilmiş "İqtisadi jurnalistika" təlim kurslarını qeyd etmək lazımdır. Hər iki kursda tələbələrimiz aktiv iştirak etməklə yanaşı, müvafiq sertifikatlarla da təltif ediliblər. Daha bir neçə nazirliklə profil istiqamətinə uyğun olaraq kursların təşkil edilməsi nəzərdə tutulub.

Kastinqlər. Tələbələrin gələcəkdə işlə təmin edilməsini təmin etmək məqsədi ilə son bir ildə fakültəmizdə peşəkar media quruluşlarının rəhbərlərinin iştirakı ilə kastinqlər təşkil edilir. Bu kastinqlərin nəticəsi olaraq yuxarı kurslarda oxuyan tələbələrimizin bir çoxu AzTV, CBC, İTV, ARB, "Real" kimi ölkənin aparıcı televiziya kanallarında, eyni zamanda, bir sıra aparıcı internet portallarında, informasiya agentliklərində iş təklifləri almışlar. Keçirilən bu kastinqlərin nəticəsi olaraq 2018-ci il bakalavr buraxılışının, təqribən, 35 faizi hazırda istehsalatda çalışmaqdadır.

Görüşlər. Jurnalistika fakültəsində təhsil alan tələbələrin dünyagörüşlərinin geniş olması, onların dövlətimizə və dəyərlərimizə daha möhkəm bağlı olmaları, yad təsirlərə məruz qalmamaları üçün mütəmadi olaraq davamlı şəkildə millət vəkilləri, ictimai-siyasi xadimlər, aparıcı jurnalistlərimiz ilə maarifləndirici görüşlər təşkil edilir. Son iki il ərzində əlliyədək belə görüş keçirilib.

Türk İşbirliği və Koordinasyon Ajansı Başkanlığı ilə də fakültəmizin yaxın əlaqələri mövcuddur və bu əlaqələr eyni zamanda, səmərəli əməkdaşlıq imkanları yaradır. TİKA-nın xətti ilə professional jurnalistika fəaliyyəti ilə bağlı təşkil olunan treninqlərdə fakültəmizin tələbələrinə xüsusi diqqət göstərilir.

Fakültəmizdə üzərində daimi iş aparıldığı digər əhəmiyyətli istiqamət isə müasir tələblərə cavab verən dərslik və dərs vəsaitlərinin hazırlanması ilə bağlıdır. Bu gün ənənəvi media yerini interaktiv, rəqəmsal mediaya verir. İyirmi il bundan əvvəlki xəbər və ya analitik janrların xüsusiyyətləri hazırda tamamən fərqlidir. Bu səbəbdən də son illərdə yeni tələblərə cavab verən dərsliklər, dərs vəsaitlərinin hazırlanmasına xüsusi önəm verməkdəyik.

Hazırda biz informasiya əsrində yaşayırıq. İnformasiyasız gündəlik həyatımızı təsəvvür edə bilmirik. Jurnalistika informasiya ilə cəmiyyət arasında rabitə yaradan, körpü təşkil edən, yeri gəldikdə ona təsir etmək gücü olan ictimaisiyasi institutdur. Müasir dövrdə media həm də ən təhlükəli müharibə növü olan - İnformasiya savaşının başlıca və ən effektiv silahıdır. Təəccüblü deyil ki, bu gün "informasiya ekologiyası", "informasiya çirkliliyi" kimi ifadələrlə artıq daha tez-tez qarşılaşmalı oluruq. Bu baxımdan şübhəsiz ki, həqiqətlərimizin, doğrularımızın dünyaya çatdırılmasında jurnalistikanın önəmli rolu var.

Şübhəsiz ki, jurnalistikamızın inkişafına dövlət qayğısı da marağın, həvəsin artmasına təsirini göstərir. Bütün bu məqamlar ölkəmizdə media azadlığının möhkəmlənməsinə və eləcə də jurnalistikanın öz fəlsəfəsindən irəli gələrək bilgiləndirmək və maarifləndirmək funksiyalarını daha sərbəst və rahat şəkildə həyata keçirməsinə təkan verən əsas elementlərdir.

Milli mətbuatımızın 145 illik yubileyi barədə Prezident sərəncamında çağdaş jurnalistikamızın inkişaf meylləri və qarşısında duran vəzifələr də aydın, konkret əksini tapıb: "Kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır".

Doğrudan da, peşəkar yanaşma, qabaqcıl texnologiyaları nəmimsəmək, həqiqətə sadiq qalmaq, sosial məsuliyyət və vətəndaş həmrəyliyi mövqeyindən çıxış etmək jurnalistlərin borcu olduğu ən vacib məqamlardır. Bu, zamanın tələbi olmaqla, həm də günümüzün reallığıdır. BDU-nun Jurnalistika fakültəsinin kollektivi bu önəmli məqamlardan çıxış edərək yeni nəsil peşəkar jurnalistlərin yetişdirilməsində öz ənənələrini zamanın öncül çağrışları ilə qovuşdurmaq əzmindədir.

Vüqar ZİFƏROĞLU,
BDU-nun Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru
Cahangir MƏMMƏDLİ,
BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor